**Azərbaycan Respublikası Vergilər Nazirliyinin**
**Tədris Mərkəzi**

**"Gəlirlərin, xərclərin və maliyyə nəticələrinin uçotu" mövzusu üzrə**

# TƏLİM MATERİALI

| | |
|---|---|
| **Dinləyicilər** | Müsabiqə yolu ilə vergi orqanlarına staj müddətinə işə qəbul edilən əməkdaşlar; |
| **Təhsilalma forması** | əyani; |
| **Tədris müddəti** | 4 saat; |
| **Müəllif** | Tanrıverdiyev Qalib Əziz oğlu, dosent; |

**Tədrisin məqsədi -** Gəlirlərin, xərclərin və maliyyə nəticələrinin uçotu barədə dinləyiciləri marifləndirmək, onları həm nəzəri, həm də praktiki cəhətdən izah etməkdir. Dinləyicilər təlimin sonunda gəlirlərin, xərclərin və maliyyə nəticələrinin uçotunun nəzəri və praktiki tərəflərini bilməlidirlər.

**Şamaxı – 2018**

**MÜNDƏRİCAT**


1. Müəssisə və təşkilatlarda fəaliyyətin nəticələri və bununla bağlı digər əməliyyatlar üzrə sintetik uçotun aparılması........................................................................3
2. Gəlirlər..........................................................................................3
3. Əsas əməliyyat gəliri..........................................................................3
4. Sair əməliyyat gəliri............................................................................5
5. Fəaliyyətin dayandırılmasından mənfəətlər.........................................6
6. Maliyyə gəlirləri.................................................................................7
7. Satışın maya dəyəri............................................................................8
8. Mənfəətlər (zərərlər)............................................................................9
9. Mənfəət vergisi..................................................................................10

## I.Müəssisə və təşkilatlarda fəaliyyətin nəticələri və bununla bağlı digər əməliyyatlar üzrə sintetik uçotun aparılması

Fəaliyyətin nəticələri və bununla bağlı digər əməliyyatlar üzrə sintetik uçotun aparılmasının əsas məqsədi hesabat dövrü ərzində göstərilmiş xidmətlərin, görülmüş işlərin təqdim edilməsi üzrə tanınmış gəlirlərin, xərclərin, hesablanmış mənfəətin, hesablanmış kapital ehtiyatının, bölüşdürülməyən mənfəətin (ödənilməyən zərərin) cəmi məbləğləri barədə dəqiq məlumatın əldə edilməsindən ibarətdir.

Təşkilatlarda fəaliyyətin nəticələri və bununla bağlı digər əməliyyatlar üzrə mühasibat yazılışları (müxabirləşmələr) **memorial order № 8**-də aparılır.

Fəaliyyətin nəticələri və bununla bağlı digər əməliyyatlar üzrə mühasibat yazılışlarının (müxabirləşmələrin) verilməsi aşağıdakı kimi həyata keçirilir:

-fəaliyyətin nəticələri və bununla bağlı digər əməliyyatlar üzrə sintetik uçot hər hesab (subhesab) üzrə memorial orderlərə əsasən aparılır;

-memorial orderlərdə gəlirlərin, xərclərin, mənfəətin (zərərin), o cümlədən kapital ehtiyatının, bölüşdürülməyən mənfəətin (ödənilməyən zərərin) hesabat dövrü ərzində əldə edilmiş cəmi məbləğləri barədə məlumatlar öz əksini tapmalıdır.

## II.Gəlirlər

Hesablar planının 6-cı bölməsində Mənfəət və zərər haqqında hesabatda təqdim edilməli olan gəlir növləri barədə ümumiləşdirilmiş məlumat təqdim olunur. Bu gəlir növləri 6№li Milli Mühasibat Uçotu Standartına uyğun olaraq 4 əsas kateqoriyaya, o cümlədən əsas əməliyyat gəliri, sair əməliyyat gəlirləri, fəaliyyətin dayandırılmasından mənfəətlər və maliyyə gəlirlərinə bölünür.




## III.Əsas əməliyyat gəliri

Əsas əməliyyat gəliri müəssisənin əsas fəaliyyət növündən əldə olunan gəlirdir. Bu gəlirin tanınması və qiymətləndirilməsi 6№li Milli Mühasibat Uçotu Standartına əsasən həyata keçirilməklə 601№li hesabda göstərilməlidir.

Əsas fəaliyyətə aid olan malların satışı, xidmətlərin göstərilməsi, royaltilərdən, tikinti müqavilələrindən, icarədən və digər satış əməliyyatlarından daxilolmalar 601№li hesabda uçota alınır.

Tikinti müəssisələrində 601№li hesabın kreditində başa çatdırılmış tikinti obyektlərinin, yaxud podrat və subpodrat müqavilələri üzrə yerinə yetirilmiş işlərin sifarişçilərlə podratçı, yaxud subpodratçılar arasında hesablaşmalar üçün əsas sayılan sənədlər üzrə müəyyən edilmiş dəyəri (171 və ya 211 №li hesablar ilə müxabirləşməklə) əks etdirilir.




| DT | KT | Əməliyyatın məzmunu |
|---|---|---|
| 601 | 801 | Malların təqdim edilməsi, xidmətlərin göstərilməsi, işlərin görülməsi, royalti gəliri və əməliyyat icarəsi üzrə gəlirlər, habelə digər əsas əməliyyat gəliri |
| 801 | 701 | Malların təqdim edilməsi, xidmətlərin göstərilməsi, işlərin görülməsi, royalti və əməliyyat icarəsi üzrə, habelə digər əməliyyat gəliri üzrə hesablanmış xərclərə |

Hesabat dövrü ərzində mühasibat uçotu subyekti tərəfindən malların (işlərin, xidmətlərin) satışı, verilmiş borclara, kreditlərə görə hesablanmış faizlər, mühasibat uçotu subyektinin aktivlərinin istifadə etmə hüququnu təmin edən müqavilələrə əsasən icarəçi tərəfindən ödənilməli olan icarə haqları üzrə gəlirin tanınma meyarlarına uyğun olaraq hesablanmış qısamüddətli debitor borcları 211, 212, 213, 214, 215, 216, 217 №li hesabların müvafiq subhesablarının debeti və 601, 611, 631 №li hesabların müvafiq subhesablarının kreditində əks etdirilir.

Hesabat dövrünün sonunda maliyyə nəticəsini müəyyən etmək üçün satış hesablarında heç bir qalıq qalmamaq şərtilə 801№li hesaba silinir.

Əgər müəssisə satılmış malların geri qaytarılmasını qəbul etmək siyasətini tətbiq edirsə, bu zaman qaytarılan malların məbləği 602 №li hesabın debetində, pul vəsaitlərini uçota alan hesabların kreditində yazılır.

***Misal:*** Müəssisə zəmanətlə vahidinin qiyməti 300,00 manat olmaqla 95 ədəd soyuducu satıb. Bundan 5 ədədi standarta uyğun gəlmədiyindən geri qaytarılıb. Mühasibat yazılışı cədvəldə göstərilib.

Alıcılara satılmış mallara (iş və xidmətlərə) görə güzəşt tətbiq olunursa satışın tam məbləği 601№li hesabın kreditinə, güzəşt məbləği isə 603№li hesabın debetinə yazılır.

***Misal:*** Müəssisə 1 qutusunun qiyməti 6,00 manat olmaqla 160 qutu Pepsi-cola satıb. Əgər alıcı 100 qutudan artıq alırsa, artıq alınan hər qutuya görə 20% güzəşt edilir. Müvafiq mühasibat yazılışları cədvəldə göstərilib.

| DT | KT | Məbləğ | Əməliyyatın məzmunu |
|---|---|---|---|
| 171,211 | 601 | 28.470,00 | Hazır məhsul, mallar və digər ehtiyatlar alıcıya təqdim olunur |
| 221 | 171,211 | 2475,50 | Satışdan kassaya daxil olub |
| 601 | 801 | 40.090,90 | Hesabat dövrünün sonunda satış mənfəətə silinir |
| 211 | 601 | 28.500,00 | Soyuducu satılıb. Cəmi 95 ədəd |
| 602 | 223 | 1.500,00 | Geri qaytarılıb- 5 ədəd |
| 211 | 601 | 960,00 | Pepsi-cola satılıb-160 qutu |
| 603 | 211 | 72,00 | Güzəşt edilib (6,00x20%x60) |

## IV.Sair əməliyyat gəlirləri

Sair əməliyyat gəlirləri 61-ci maddədə 611№li "Sair əməliyyat gəlirləri" hesabında uçota alınır. Buraya əsas fəaliyyətə aid olmayan digər gəlirlər aid edilir.






**Misal :** 1) Müəssisə rabitə xidməti fəaliyyəti ilə məşğul olur. Balansda olan 2 ədəd avtomobil 17.000,00 manata satılıb.

2) Dəyəri 12.500,00 manat olan silinən generatorun 980,00 manat məbləğində qiymətləndirilən bir hissəsi təsərrüfata yararlıdır.

Müvafiq məbləğlər 611№li hesabın kreditinə yazılır.

Debet 217, Kredit 611 – 17.000,00 manat;

Debet 207, Kredit 611 - 980,00 manat.

**Misal:** “AA” müəssisəsinin mühasibat uçotunda ilkin dəyəri ilə 10.000 manatlıq avadanlıq var. Həmin avadanlığın satışına kimi amortizasiyası 5.000 manat təşkil edib. Avadanlıq müəssisə tərəfindən 8.000 manata satılıb.

| DT | KT | Məbləğ | Əməliyyatın məzmunu |
|---|---|---|---|
| 223 | 611 | 8.000 | Avadanlığın satışından 8.000 manat məbləğ banka daxil olub |
| 731 | 111 | 5.000 | Avadanlıq satıldıqdan sonra onun ilkin dəyəri silinir |
| 112 | 731 | 5.000 | Satılmış avadanlığın satış anına kimi hesablanmış amortizasiya ayırmaları silinir |
| 801 | 731 | 5.000 | Avadanlığın xərcə silinmiş qalıq dəyəri gəlirdən azaldılır |
| 611 | 801 | 3.000 | Avadanlığın satışından yaranan məbləğ mənfəətə silinir |

611-1 №li “Torpaq, tikili, avadanlıqların və digər uzunmüddətli aktivlərin satışından gəlirlər” subhesabının kreditində yığılmış məbləğlər hesabat dövrünün mənfəəti kimi 611-1 №li subhesabın debetində və 801 №li hesabın müvafiq subhesablarının kreditində əks etdirilir.

## V.Fəaliyyətin dayandırılmasından mənfəətlər

Müəssisənin fəaliyyətinin bir hissəsinin satılması nəticəsində əldə edilən gəlir 62-ci maddədə, 621№li “Fəaliyyətin dayandırılmasından mənfəətlər” hesabında uçota alınır.

***Misal:*** Firma konfet və peçenyə istehsalı ilə məşğul olur. Maliyyə vəziyyəti nəzərə alınaraq konfet istehsal edən sex 74.500,00 manata satılır. Müvafiq məbləğ 621№li hesabın kreditinə yazılır.

***Misal:*** “AA” firmasının taksi xidmətindən gəliri 100.000 manat, xərcləri isə 70.000 manat olub. Firmanın digər fəaliyyətdən gəliri 500.000 manat, xərcləri isə 510.000 manatdır. Qeyd etdiyimiz kimi firma taksi xidmətini tam olaraq dayandırıb və taksilərin satışı həyata keçirilir. Firma hər iki fəaliyyəti əsas əməliyyat fəaliyyəti kimi uçota alıb.

Bu zaman müxabirləşmələr aparılmasına baxaq:

| DT | KT | Məbləğ | Əməliyyatın məzmunu |
|---|---|---|---|
| 211 | 601 | 500.000 | Digər fəaliyyətdən illik gəlir nəzərə alınıb |
| 211 | 601 | 100.000 | Taksi fəaliyyətindən illik gəlir nəzərə alınıb |
| 701 | 00 | 70.000 | Bütün taksi xərcləri nəzərə alınıb |
| 701 | 00 | 510.000 | Bütün digər fəaliyyət xərcləri nəzərə alınıb |

| | | | |
|---|---|---|---|
| 601 | 701 | 580.000 | Xərclər satışın maya dəyərindən satışa silinir |
| 801 | 601 | 10.000 | Digr fəaliyyətdən əldə olunan zərər birbaşa ümumi mənfəət (zərər) hesabına silinir |
| 601 | 621 | 30.000 | Mənfəət və zərər haqqında hesabatda ayrıca göstərilir |

***Qeyd:*** burada xərclər müxtəlif mənfələrdən yarandığına görə ümumi bir 00 saylı köməkçi hesab açmışıq.

## VI.Maliyyə gəlirləri

Hesablar planının 63-cü maddəsində 631№li "Maliyyə gəlirləri" hesabı nəzərdə tutulub. Müvafiq hesaba faiz gəliri, qiymətdən düşmüş borclar üzrə faiz gəliri, əldə olunmuş dividend gəliri, maliyyə icarəsi üzrə gəlir, maliyyə alətlərinin ədalətli dəyərinin dəyişməsindən gəlir və faiz xərcləri yaradan öhdəliklər üzrə məzənnə gəliri daxildir.

***Misal:*** Alıcı 16.400,00 manat məbləğində borcu vaxtında ödəmədiyinə görə 20% cərimə 3.280,00 manat (16.400,00X 20%) ödəməlidir. Müəssisə 5.210,00 manat dividend gəliri əldə edib.

***Misal:*** "AA" müəssisəsi 10.000 manatlıq avadanlığı "VV" müəssisəsinə dekabr 2009-cu ildə 15.000 manata maliyyə icarəsi ilə verib. İcarənin müddəti 5 ildir. Yaranan fərq -5.000 manat maliyyə faizi gəlirləridir."VV" müəssisəsi "AA" müəssisəsinə birinci il üçün (2010-cu il) 4.000 manat (2.500 manat əsas borc, 1.500 manat faiz xərci), ikinci il üçün 3.500 manat (2.500 manat əsas borc, 1.000 manat faiz xərci), üçüncü il üçün (2.500 manat əsas borc, 500 manat faiz xərci), dördüncü il üçün 2.500 manat (2.000 manat əsas borc, 500 manat faiz xərci), beçinci il üçün isə 2.000 manat (1.500 manat əsas borc, 500 manat faiz xərci) ödəyəcək.

Bu halda hansı müxabirləşmələrin aparılmalı olduğuna baxaq:

| DT | KT | Məbləğ | Əməliyyatın məzmunu |
|---|---|---|---|
| 174 | 111 | 10.000 | "AA" firması "VV" firmasına maliyyə icarəsi ilə avadanlıq verib. Avadanlıq öz dəyəri ilə silinib. |
| 176 | 442 | 5.000 | "AA" firması ödəniləcək faiz xərclərini uçota alır |
| 214 | 174 | 2.500 | Uzunmüddətlidən qısamüddətli debitor borca silinir |
| 216 | 176 | 1.500 | Uzunmüddətlidən qısamüddətli debitor borca silinir |
| 442 | 542 | 1.500 | Uzunmüddətli gələcək dövrün xərclərindən qısamüddətli xərclərə silinir |
| 223 | 216 | 1.500 | 1-ci il üçün "AA" firmasına "VV" firması 1.500 manat icarə haqqının faiz borcunu ödəyib |
| 223 | 214 | 2.500 | 1-ci il üçün "AA" firmasına "VV" firması 2.500 manat icarə haqqının faiz borcunu ödəyib |
| 542 | 631 | 1.500 | 1-ci ildə maliyyə icarəsi üzrə faiz gəliri uçota alınır |






## VII.Satışın maya dəyəri

Hesablar planının 7-ci bölməsində xərclər göstərilir. 70-ci maddədə 701№li "Satışın maya dəyəri" hesabı uçota alınır. Bura məhsulun (iş və xidmətlərin) satışından gəlirin əldə edilməsi ilə bağlı bütün xərclər daxildir. Xammalın, təkrar satış üçün nəzərdə tutulan malların dəyəri, istehsal heyəti ilə bağlı xərclər, amortizasiya və digər xərclər aiddir. Müvafiq xərclər hesabat dövrünün sonunda istehsal məsrəfləri, yaxud digər hesablardan satışın maya dəyəri hesabına silinir.

Kommersiya xərcləri 71-ci maddədə 711№li "Kommersiya xərcləri" hesabında nəzərdə tutulub. Bura reklam, marketing, kommersiya işinə aid aktivlərin amortizasiyası, bu fəaliyyətə aid işçi heyəti ilə bağlı xərclər, həmçinin satışla əlaqəsi olmayan digər təchizat işləri aiddir.

İnzibati xərclər 72-ci maddədə 721№li "İnzibati xərclər" hesabında uçota alınır. Müvafiq hesabda idarəetməyə çəkilən bütün xərclər, o cümlədən müdriyyətin və inzibati heyətin əmək haqları, ofis, nümayəndəlik məsrəfləri, inzibati aktivlərin amortizasiyası və digər xərclər nəzərdə tutulub.

Sair əməliyyat xərcləri 73-cü maddədə, 731№li "Sair əməliyyat xərcləri" hesabında uçota alınır. Buraya uzunmüddətli aktivlərin satışından zərərlər, yenidən qiymətləndirmə xərcləri, aktivlərin balans dəyərində azalmalar üzrə düzəlişlər, cərimələr və bunlara oxşar digər ödənişlər, xarici valyuta mübadiləsi xərcləri, şübhəli və ümidsiz borclar, qiymətdən düşmə üzrə zərərlər və digər xərclər aiddir.

Müəssisənin əməliyyatlarının bir hissəsinin satılması nəticəsində əldə edilən zərər 74-cü maddədə 741№li "Fəaliyyətin dayandırılmasından zərərlər" hesabında uçota alınır.

Hesablar planının 75-ci maddəsində 751№li "Maliyyə xərcləri" hesabı nəzərdə tutulub. Müvafiq hesaba faiz xərcləri, konvertasiya olunan istiqrazlar üzrə faiz xərcləri, maliyyə icarəsi üzrə faiz xərcləri, maliyyə alətlərinin ədalətli dəyərinin dəyişməsi üzrə xərclər və faiz xərcləri yaradan öhdəliklər üzrə məzənnə xərcləri daxildir.

| DT | KT | Məbləğ | Əməliyyatın məzmunu |
|---|---|---|---|
| 701 | 204 | 14.750,00 | Satılan hazır məhsul satışın maya dəyərinə silinir |
| 701 | 205 | 9764,50 | Mallar alış qiyməti ilə satışın maya dəyərinə silinir |
| 701 | 202 | 34675,00 | Hesabat dövrünün sonunda istehsal məsrəfləri silinir |
| 801 | 701 | 65729,70 | Hesabat dövrünün sonunda satışın maya dəyəri zərərə silinir |
| 711 | 531 | 10.000,00 | Reklam xərci hesablanıb |
| 241-1 | 531 | 1.800,00 | ƏDV nəzərə alınır |
| 711 | 431 | 14.200,00 | Xarici şirkət bazarın tədqiqi üzrə marketinq xidməti |

| | | | |
|---|---|---|---|
| | | | göstərib |
| 711 | 533 | 7.698,00 | Satış şöbəsi işçilərinə əmək haqqı hesablanıb |
| 721 | 112 | 4.145,00 | Ofis binasına amortizasiya hesablanıb |
| 721 | 522 | 4210,20 | Müdriyyətin əmək haqqına uyğun sosial sığorta haqqı hesablanıb |
| 731 | 111 | 18.010,00 | Avadanlıq satıldıqda ilk dəyərlə silinir |
| 112 | 731 | 4.120,00 | Amortizasiyanın qalığı nəzərə alınır |
| 741 | 111 | 60.000,00 | Fəaliyyətini dayandıran sex satıldıqda ilk dəyərlə silinir |
| 741 | 538 | 1.200,00 | Söküntü işlərini həyata keçirən firmaya kreditor borc yaranıb |
| 751 | 501 | 3.220,00 | Qısamüddətli bank kreditinə görə faiz ödənilib |
| 731 | 521, 522, 523, 538, 545 | 2.000,00 | Cərimələr və digər oxşar ödənişlərdən yaranan xərclərə |

## VIII.Mənfəətlər (zərərlər)

Hesablar planının 8-ci bölməsində mənfəətlər (zərərlər) qeyd edilir. 80-ci maddədə 801№li "Ümumi mənfəət (zərər)" hesabı mənfəət (zərər) barədə məlumatların ümumiləşdirilməsi üçün nəzərdə tutulub. Ümumi mənfəət hesablar planının 6-cı bölməsində olan gəlirlərin məbləğindən 7-ci bölmədəki xərclərin cəmi çıxılmaqla müəyyən edilir.

Müəssisə asılı müəssisələrə malik olarsa və ya birgə müəssisənin bir hissəsidirsə, o zaman əldə olunan hər hansı mənfəət (zərər) 81-ci maddədə 811№li "Asılı və birgə müəssisələrin mənfəətlərində (zərərlərində) pay" hesabında uçota alınır.

Hesabat ilində müəssisənin fəaliyyətinin son maliyyə nəticələrinin formalaşması haqqında məlumatların ümumiləşdirilməsi üçün 801№li hesabdan istifadə edilir.

Balans mənfəəti təsərrüfat əməliyyatlarının və balans maddələrinin qiymətləndirilməsinin sonuncu maliyyə nəticəsi kimi özündə müəssisənin əsas vəsaitlərinin və başqa əmlaklarının, məhsulların (işlərin və xidmətlərin) satışından olan mənfəəti (zərəri), həmçinin qeyri-satış əməliyyatlarından gələn gəlirləri (bu əməliyyatlar üzrə xərclər çıxılmaqla) cəmləşdirir.

Hesabat ilində aşkar edilmiş, lakin keçmiş illərin mənfəətinə aid olan mənfəət, yaxud zərər hesabat ilinin maliyyə nəticələrinə aid edilir. Hesabat dövründə alınmış, lakin gələcək hesabat dövrünə aid olan gəlirlər uçotda ayrı maddə üzrə gələcək dövrlərin gəlirləri kimi əks etdirilir.

Son maliyyə nəticəsi (mənfəət və ya zərər) məhsul (iş və xidmət), digər maddi sərvətlərin satışından əldə edilən maliyyə nəticəsindən və qeyri-satış əməliyyatları üzrə xərc məbləğləri çıxılmaqla əldə olunan gəlirlərdən (zərərdən) ibarətdir.

801№li hesabın debetində müəssisənin zərərləri, kreditində isə mənfəətləri əks olunur. Həmin hesabın debet və kredit dövriyyələrinin üzləşməsi hesabat ilinin son maliyyə nəticəsini göstərir.

Yaranan gəlirlər üzrə məbləğlər hesabat dövrünün mənfəəti kimi 601, 611, 621, 631, 641 №li hesabların müvafiq subhesablarının debeti və 801 №li hesabın müvafiq subhesablarının krediti üzrə mühasibat yazılışı verilir.

Xərclər üzrə yaranan məbləğ hesabat dövrünün zərəri kimi 801 №li hesabın müvafiq subhesablarının debeti və 701, 711, 721, 731, 741, 751, 761 №li hesabların müvafiq subhesablarının krediti üzrə mühasibat yazılışı verilir.

| DT | KT | Məbləğ | Əməliyyatın məzmunu |
|---|---|---|---|
| 601 | 801 | 45.000,00 | Məhsul, iş və xidmətlərin satışından mənfəət əks etdirildikdə |

| | | | |
|---|---|---|---|
| 611 | 801 | 17.450,00 | Əsas vəsaitlərin, qeyri-maddi aktivlərin, qiymətli kağızların satışından mənfəət əks etdirildikdə |
| 332 | 801 | 774,50 | İlin sonuna valyuta hesabı üzrə məzənnə fərqi silindikdə |
| 335 | 801 | 245,00 | Şübhəli borclar üzrə ehtiyatın istifadə olunmamış hissəsi mənfəətə silindikdə |
| 333 | 801 | 1.245,00 | Ehtiyat və xüsusi fondar hesabına hesabat ilinin zərəri ödənildikdə |
| 801 | 204 | 4.520,00 | Hazır məhsul üzrə əskikgəlmələr zərərə silindikdə |
| 801 | 341 | 6.452,00 | İl ərzində istifadə olunmuş mənfəət məbləği silindikdə |

## IX.Mənfəət vergisi

Təsərrüfat fəaliyyətinin son nəticəsi təsisçilərə dividendlərin ödənilməsi üçün hesabat ilinin bölüşdürülməmiş mənfəətini və ya zərərini müəyyənləşdirməkdir. Əgər müəssisə ili mənfəətlə başa vurubsa, ilk növbədə, ümumi mənfəəti müəyyənləşdirmək, sonrakı mərhələdə mənfəət vergisini hesablamaq, daha sonra isə ümumi mənfəətdən mənfəət vergisini çıxmaq lazımdır. Bu məqsədlə mövcud hesablar planının 9-cu bölməsində Mənfəət vergisi nəzərdə tutulub. 90-cı maddədə 901№li "Cari mənfəət vergisi üzrə xərclər" və 902№li "Təxirə salınmış mənfəət vergisi üzrə xərclər" hesabından istifadə edilir.

Cari ilin mənfəəti üzrə hesablanmış vergi məbləği "Cari mənfəət vergisi üzrə xərclər" adlı 901№li, hər hansı təxirə salınmış vergi öhdəliklərinin cari ilə aid olan hissəsi isə"Təxirə salınmış mənfəət vergisi üzrə xərclər" adlı 902 №li hesabın kreditində uçota alınır.

Vergiqoymadan əvvəl mənfəətdən (zərərdən) hesablar planının 901-ci və 902-ci hesablarında uçota alınmış məbləğlər çıxılmaqla mühasibat balansının "Hesabat dövrünün xalis mənfəəti (zərəri) adlı 341 nömrəli hesaba daxil edilir.

| DT | KT | Məbləğ | Əməliyyatın məzmunu |
|---|---|---|---|
| 901 | 521 | 10.000,00 | Cari mənfəət vergisi üzrə hesablanıb |
| 902 | 421 | 2.000,00 | İllik təxirə salınmış mənfəət vergisi yaranıb |
| 801 | 901 | 10.000,00 | Mənfəət vergisi silinir |
| 801 | 902 | 2.000,00 | Təxirə salınmış mənfəət vergisi silinir |
| 801 | 341 | 28.000,00 | Hesabat ilinin xalis mənfəəti silinir |
| 521 | 223 | 10.000,00 | Mənfəət vergisi ödənilib |

**Nəzarət sualları:**

1. 6№li Milli Mühasibat Uçotu Standartına uyğun olaraq gəlirlər hansı kateqoriyalara bölünür?
2. Əsas əməliyyat gəliri nədir?
3. Sair əməliyyat gəliri nədir?
4. Fəaliyyətin dayandırılmasından mənfəətlər nədir?
5. Maliyyə gəlirləri nədir?
6. Kommersiya xərcləri nədir?
7. İnzibati xərclər nədir?
8. Sair əməliyyat xərcləri nədir?
9. Maliyyə xərcləri nədir?
10. Məhsul, iş və xidmətlərin satışından mənfəət əks etdirildikdə hansı mühasibat yazılışı tərtib edilir?

11. Əsas vəsaitlərin və qeyri-maddi aktivlərin, satışından mənfəət əks etdirildikdə hansı mühasibat yazılışı tərtib edilir?
12.İlin sonuna valyuta hesabı üzrə məzənnə fərqi silindikdə hansı mühasibat yazılışı tərtib edilir?

**Müstəqil öyrənmə üçün tapşırıqlar:**
1. Gəlirlərin, xərclərin və maliyyə nəticələrinin mühasibat və vergitutma məqsədləri üçün uçotunun müqayisəsi.

**İstifadə edilmiş ədəbiyyat**


1. "Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına və Milli Mühasibat Uçotu Standartlarına uyğun olaraq memorial order forması əsasında sintetik uçotun aparılması Qaydası. Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Kollegiyasının Q-02 nömrəli 18 yanvar 2016-cı il tarixli qərarı ilə təsdiq edilmişdir
2. Kərimov A.R. Mühasibat uçotu, vergilər. Bakı, 2015
3. Quliyev V., Fətullayev R., Kərimov A. Beynəlxalq uçot və hesabata giriş. Bakı, 2015
4. Mühasibat uçotunun əsasları.(beynəlxalq). Dərs vəsaiti. Birinci nəşr- GRBS. Bakı, 2010
5. www.taxes.gov.az
6. www.maliyye.gov.az
7. www.mühasib.az